**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№345/6** **30 iyun 2022-ci il**

**Auditorlar Palatasında 2022-ci ilin I yarımilində keçirilmiş tədbirlərdə (konfranslar, simpoziumlar, "dəyirmi masa"lar, seminarlar, ustad dərsləri və s.) Palata üzvlərinin iştirakının monitorinqi barədə**

Auditorlar Palatasınının 2022-ci il üzrə iş planının 7.17-ci "Palatada fəaliyyət göstərən "Dəyirmi masa", təşkil olunan seminar, konfrans və s. tədbirlərdə Palatanın üzvlərinin iştirakının monitorinqi" bəndinə və Palata sədrinin "Auditorlar Palatasında keçiriləcək tədbirlərin (konfranslar, simpoziumlar, "dəyirmi masa"lar, seminarlar, ustad dərsləri və s.) təşkili və təşviqi barədə" 2022-ci il 12 yanvar tarixli 1/2 nömrəli Sərəncamının 5-ci bəndinə uyğun olaraq Palatanın Audit sistemində icra intizamı və daxili nəzarət şöbəsi (Z.Almazov) tərəfindən təqdim edilmiş arayışı müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. Auditorlar Palatasında 2022-ci ilin I yarımilində keçirilmiş tədbirlərdə (konfranslar, simpoziumlar, "dəyirmi masa"lar, seminarlar, ustad dərsləri) moderatorlara (Q.Bayramov, F.Qarayev, N.Talıbov, Y.Namazəliyev, V.Rəhimov, E.İbrahimov, A.Cəfərov), məruzəçilərə (N.Talıbov, Ü.Fətiyev, V.Rəhimov, S.Vəlizadə, A.Cəfərov, E.İbrahimov, V.Cavadov, E.Qurbanov, N.Axundov, D.Məmmədov, N.Abbaslı, Z.Qədimli, N.Niftəliyev, Z.Mikayılov, A.Səfərova, Q.Əhmədov) təşkilatçılara (Z.Almazov, A.Seyidəliyeva, Ş.Əsgərova, F.Kamalova) təşəkkür elan edilsin.
2. Auditorlar Palatasında 2022-ci ilin I yarımilində keçirilmiş tədbirlərdə tam iştirak edən "Ekol Audit" MMC-nin direktor-auditoru E.Quluzadəyə, "Elvi Audit" MMC-nin direktor-auditoru E.İsmayılova, "L.B. Audit xidməti" MMC-nin direktor-auditoru L.Bayramovaya, "TNM Audit" MMC-nin direktor-auditoru N.Talıbova və sərbəst auditor E.İbrahimova təşəkkür elan edilsin.
3. Auditorlar Palatasında 2022-ci ilin I yarımilində keçirilmiş tədbirlərin ümumi sayının 50%-dən çoxunda iştirak edən auditor təşkilatlarının və sərbəst auditorların işləri müsbət qiymətləndirilsin (1 saylı siyahı əlavə olunur).
4. Auditorlar Palatasında 2022-ci ilin I yarımilində keçirilmiş tədbirlərin ümumi sayının 50%-dən az iştirak edən auditor təşkilatlarının rəhbərlərinin və sərbəst auditorların nəzərinə çatdırılsın ki, gələcəkdə bu tədbirlərdə daha fəal iştirak etsinlər (2 saylı siyahı əlavə olunur).
5. Auditorlar Palatasında 2022-ci ilin I yarımilində keçirilmiş tədbirlərdə iştirak etməyən auditor təşkilatlarının rəhbərlərinə və sərbəst auditorlara xəbərdarlıq elan edilsin və onların nəzərlərinə çatdırılsın ki, gələcəkdə bir daha belə hallara yol verdikləri təqdirdə barələrində daha ciddi intizam tədbirləri görülə bilər (3 saylı siyahı əlavə olunur).
6. Auditin təşkili, hesabatlılıq və informasiya idarəsinə (V.Cavadov), Şəxsi heyət üzrə menecerə (N.Abdullayeva) və Audit sistemində icra intizamı və daxili nəzarət şöbəsinə (Z.Almazov) tapşırılsın ki, bu qərarın 1-ci, 2-ci və 3-cü bəndlərindən irəli gələn məsələləri həll etsinlər.
7. Sədrin müşaviri F.Qarayevə tapşırılsın ki, üç gün müddətində bu qərarın və siyahıların mətnlərinin Palatanın internet səhifəsində yerləşdirilməsi təmin edilsin.

**Şuranın sədri** **Vahid Novruzov**